# Fəal (interaktiv) təlimdə şagird nailiyyətinin qiymətləndirilməsi

**Dürdanə Cəmşid qızı Hüseynova**
*pedaqogika üzrə fəlsəfə doktoru,*
*ADPU-nun "Riyaziyyat və onun ibtidai kursunun tədrisi metodikası" kafedrasının böyük laborantı*
**E-mail:** durdana.saday@bk.ru

**Rəyçilər:** r.ü.f.d., dos. Q.Q. Balaşov,
p.ü.f.d., dos. Z.K. Kazımov

**Açar sözlər:** şagird nailiyyətləri, kurikulum, təlim prosesi, monitorinq, islahat, qiymətləndirmə, metod

**Ключевые слово:** ученическое достижение, курикулум, процесс обучения, мониторинг, реформа, оценивание, метод

**Key words:** pupil achievements, curriculum, process of training, monitoring, reform, to value, method

Hər bir xalqın mənəvi və maddi zənginlikləri ilk növbədə onun təhsili ilə bağlıdır. Ulu öndərimiz Heydər Əliyevin "Təhsil millətin gələcəyidir" müddəası ilə özülü qoyulmuş milli təhsil siyasəti ölkəmizdə uğurla davam etdirilir. Azərbaycan təhsilinin inkişaf perspektivləri Heydər Əliyevin üç mühüm müddəasında öz əksini tapmışdır:

1. Təhsil sahəsində qazanılmış təcrübənin öyrənilməsi və mütərəqqi ənənələrin əsas götürülməsi.
2. Dünyanın inkişaf etmiş ölkələrinin qabaqcıl təcrübələrinin əxz olunması və quruculuq illərində onlara istinad edilməsi.
3. Aparılan islahat işlərində tələskənliyə yol verilməməsi, təkamül yolunun seçilməsi (1).

Yeni təhsil sisteminin xüsusiyyətləri onun müasirliyi və gələcək perspektivlərini özündə əks etdirir:

— demokratik və humanist prinsiplərə əsaslanan inteqrativ təhsil sisteminin yaradılması;
— şagird və tələbələrin idraki inkişafın parametrlərinin nəzərə alınması;
— təhsilin bilavasitə inkişafyönümlü bir proses kimi stimullaşdırılması;
— təhsilin daha çox qarşılıqlı əməkdaşlıq əlaqələrinə söykənməsi və təlim prosesində şagirdin bir subyekt kimi qəbul olunması;
— təhsilin şəxsiyyətyönümlü olması, şəxsiyyətin formalaşdırılması və hafizə faktoruna deyil, müstəqil yaradıcı təfəkkürə istinad etmək lazımdır;
— təhsildə milli və bəşəri dəyərlərə istinad edilməsi.

İnteraktiv təlim metodlarının tətbiq edildiyi müasir ümumtəhsil məktəblərində fənlərin tədrisində qabaqcıl təcrübə ilə yanaşı respublikamızda qazanılmış və öz aktuallığını saxlayan təcrübədən istifadə olunmalıdır.

Məktəb hər bir uşağa həyatın ən əsas tələbatı olan özünü tam mənada şəxsiyyət kimi hiss etmək istəyini gerçəkləşdirmək üçün yol açmalıdır.

Şagird nailiyyətlərinin qiymətləndirilməsi təlim fəaliyyətinin ayrılmaz tərkib hissəsi kimi təhsilin keyfiyyətinin qiymətləndirilməsinə, nəticə etibarı ilə onun yüksəldilməsinə, bu zaman məqsədəuyğunluq, qarşılıqlı qiymətləndirmə, müvafiqlik, etibarlılıq, obyektivlik, şəffaflıq və

qarşılıqlı və əməkdaşlıq prinsiplərinə əsaslanan ardıcıl və sistemli prosesdir. Qiymətləndirmə ilk növbədə uşaqda müsbət emosiyalar yaratmalıdır. Fəal (interaktiv) təlimdə müəllim ən çox şagirdin səhvlərini deyil, nailiyyətlərini vurğulamalı, cəzadan çox dəstək verməlidir. Qiymətləndirmə “Səhv cavablar olmur, müxtəlif cavablar olur” prinsipi əsasında qurulur. Müəllim səhv cavaba “Sən düz demirsən” əvəzinə “Bir daha fikirləş”, “Bu maraqlı fikirdir, lakin sualımız başqadır” deməlidir (2).

Ənənəvi dərsdə qiymətləndirmə cəmləyici qiymətə əsaslanır. Həm yekun qiymət, həm də cari qiymət cəmləyici xarakter daşıyır. Ənənəvi qiymətləndirmədə yekun qiymət cari qiymətdən asılıdır. Əgər şagird cari qiymətləndirmədə aşağı qiymət alıb, lakin yekun yoxlamalarda yüksək qiymətlər qazanıbsa, onun müsbət qiymət almaq imkanı çox azdır, çünki orta qiymət çıxarılır. Bu da şagirdlərin dərsə olan həvəsini azaldır.

Fəal (interaktiv) təlimdə - diaqnostik, formativ (cari), summativ (yekun) qiymətləndirmə aparılır (3).

Diaqnostik qiymətləndirmə növünü ilkin səviyyənin qiymətləndirilməsi də adlandırırlar. Təhsilalanların nailiyyətlərinin səviyyəsini konkret bir mərhələdə müəyyən etmək üçün son dərəcə məsuliyyət və böyük diqqət tələb edən diaqnostik qiymətləndirmə aparılır. Diaqnostik qiymətləndirmədə şagird məsuliyyətlə və düzgün qiymətləndirilməzsə, onun sonrakı inkişafını müəyyənləşdirmək mümkün olmaz.

Şagirdin ilkin bilik səviyyəsi, ilkin bacarıq səviyyəsi diaqnostik qiymətləndirmənin obyektidir.

Diaqnostik qiymətləndirmənin funksiyaları aşağıdakılardan ibarətdir:

- sinifdə şagirdlərin ümumi səviyyəsini müəyyənləşdirmək;
- fərdi şəkildə hər bir şagirdin ilkin bilik və bacarığını üzə çıxarmaq;
- müəyyən zaman çərçivəsində şagird biliyini müqayisə etmək;
- təlim prosesini istiqamətləndirmək;
- şagirdin təhsilə marağını stimullaşdırmaq.

Diaqnostik qiymətləndirmə müsahibə, söhbət, müşahidə, tapşırıqlar, valideyinlərlə və digər fənn müəllimləri ilə əməkdaşlıq əsasında aparılır.

İnteraktiv təlimdə forrmativ qiymətləndirməni həyata keçirmək üçün diferensasiyayılı yanaşmadan istifadə olunur. Bu baxımdan təklif olunan üsul çox səmərəlidir. Bu üsuldan istifadə edərkən:

— müəllim sinifdə hər bir şagirdə fərdi yanaşmağa;
— şagirdlərin biliklərə dərindən yiyələnmələrinə kömək göstərməyə;
— zəif şagirdlərin fəallığını təmin etməyə;
— fərdi şəkildə hər bir şagirdi və ümumiyyətlə sinfi fəallaşdırmağa çalışır.

Bu üsula əsasən müəllim hər birində 10 ədəd tapşırıq (tapşırıqlar testlər şəkilində olub, proqram materialını konsentrik şəkildə asandan çətinə doğru əhatə edir) olmaqla sinifdəki şagirdlərin sayı qədər kart tərtib edir. Tapşırıq kartı ilə yanaşı hər bir şagirdin fərdi cavab kartı da olur.

Şagirdlər cavabları uyğun çərçivədə əvvəl karandaşla, yoxladıqdan sonra isə qələmlə yazır və həll etmək üçün növbəti kartı götürürlər. Müəllim daim onda qalan cavab kartlarına nəzarət edərək, hər bir şagirdin hansı səviyyədə olmasına nəzarət edir. Qarşıya çıxan suallar üzərində iş həftə ərzində dərsdən sonra xüsusi təyin olunmuş vaxtda aparılır. Bu üsulla aparılan iş şagirdin müstəqil işləməsinə şərait yaradır.

Formativ qiymətləndirmədə şagird daha yaxşı nailiyyətlər əldə etmək imkanı əldə edir. Formativ qiymətləndirmə gündəlik dərs prosesində, müntəzəm, davamlı olaraq müəllimlər,

məktəb rəhbərləri tərəfindən, məktəb səviyyəsində həyata keçirilir. Formativ qiymətləndirmə zamanı müşahidə, özünüqiymətləndirmə, fəaliyyətin qiymətləndirilməsi, yazılı sorğu, müsahibələr, kağız üzərindəki tapşırıqlar, portfolio sistemi və s. metodlardan istifadə olunur.

Summativ qiymətləndirmə kiçik və boyük summativ qiymətləndirmələrdən ibarətdir. Kiçik summativ bəhs və bölmələrin sonunda altı həftədən gec olmayaraq, böyük summativ isə yarımillərin sonunda keçirilir. Kiçik summativ qiymətləndirmələr müəllim, böyük summativ qiymətləndirmə isə məktəb rəhbərliyinin iştirakı ilə sinif (fənn) müıllimi tərəfindən keçirilir. Böyük summativ qiymətləndirmə vasitələri məktəb rəhbərliyinin təşkil etdiyi xüsusi komissiya tərəfindən hazırlanır.

Yarımillik qiymət kiçik summativ qiymətlərin və yarımillik böyuk summativ qiymətin əsasında müəyyən edilir. Kiçik summativlərin nəticələri 40%, böyük summativin nəticəsi 60% olmaqla yarımillik qiymət çıxarılır (4).

Summativ qiymətləndirmə yoxlama işləri və testlərlə məhdudlaşmamalıdır, fənnin xüsusiyyətindən asılı olaraq yaradıcı nəzəri və ya praktik kompleks tapşırıqlar, məsələn, layihələr, referatlar, inşalar, tədqiqatlardan istifadə oluna bilər.

Keyfiyyətcə qiymətləndirmənin aşağıdakı üsullarından istifadə etdikdə şagirdlərin dərsə olan marağını artırmaq olar:

- portfolio sistemi;
- verbal (sözlə) qiymətləndirmə;
- özünüqiymətləndirmə;
- rənglərlə qiymətləndirmə;
- şəkillərlə qiymətləndirmə;
- meyar cədvəli.

Şagird nailiyyətinin qiymətləndirilməsi məqsədyönlü təlim prosesinin son mərhələsi olub, onun keyfiyyət dərəcəsini əks etdirir. Təlim nəticələrinin yüksək qiymətləndirilməsi bütövlükdə təlim prosesinin nə dərəcədə səmərəli olduğunu göstərir.

Məktəbdə təlim nəticələrinin monitorinqi təhsilin keyfiyyətinin səmərəli idarə olunması sisteminin yaradılmasına imkan verən şagird nailiyyətlərinin qiymətləndirilməsi işinin fasiləsiz şəkildə aparılması və nəticələrin təhlili ilə təmin olunur.

**Məqalənin aktuallığı.** Təhsil sahəsində gedən islahatlar təlim nəticələrinin qiymətləndirilməsinə də təsirsiz ötüşmür. Bu səbəbdən şagird nailiyyətlərini qiymətləndirilməsi də diqqətdən kənarda qalmır, daim yeniliklər edilir. Məqalənin aktuallığı da məhz bununla bağlıdır.

**Məqalənin elmi yeniliyi.** Yeni təhsil təlim nəticələrinin qiymətləndirilməsində yeni metodik yanaşmaların tətbiq edilməsini tələb edir ki, bu da məqalənin elmi yeniliyini təşkil edir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədəki məlumatlardan bu problemlə əlaqədar tədqiqat aparanlar, müəllimlər, magistrant və doktorantlar bəhrələnə bilərlər.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının təhsil sahəsində islahat proqramı. Bakı, 1999.

2. Azərbaycan Respublikasının ümumtəhsil sistemində Qiymətləndirmə Konsepsiyası. Bakı, “Təhsil”, 2008.

3. Veysova Z. İnteraktiv fəal təlim (müəllimlər üçün vəsait). Bakı: Pedaqigika, 2007.

4. Ümumtəhsil məktəblərində məktəbdaxili qiymətləndirmənin aparılması qaydaları // Kurikulum, 2009, № 3.

**D.Дж. Гусейнова**

## Активное (интерактивное) оценивание в обучении учащихся


### Резюме

В статье рассмотрены следующие вопросы:
— Инновации, полученные в области оценивания в успеваемости учащихся.
— Активное (интерактивное) оценивание в обучении.
— Оценивание как средство повышения интереса к уроку у учащихся.
–


**D.Dj. Huseynova**

## Active (interactive) assessment in student learning


### Summary

The article addresses the following questions
— Innovation gained in the field of assessment in student performance.
— Active (interactive) assessment in training.
— Assessment as a means of increasing interest in the lesson from.


**Redaksiyaya daxil olub:** 21.04.2021